# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN XRONOLOGİYASI

## 1983-1990

| | |
|---|---|
| **1983-cü il 18 yanvar** | SSRİ Dəniz Donanması Nazirliyinin geniş kollegiya iclasında çıxış etmişdir. |
| **1983-cü il 19 yanvar** | Kremldə Ümumdünya Meteoroloji Təşkilatın İcraiyyə Komitəsinin büro üzvlərini qəbul etmişdir. |
| **1983-ci il 24 yanvar** | SSRİ Rabitə Nazirliyinin geniş kollegiya iclasında çıxış etmişdir. |
| **1983-cü il 4 mart** | Baykal-Amur dəmiryol xəttinin tikintisi üzrə hökumət komissiyasının ilk iclasına sədrlik etmişdir. |
| **1983-cü il 7 mart** | SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Lenin ordeni və ikinci dəfə “Oraq və Çəkic” qızıl medalı ilə təltif edilmiş və vətənində büstünün qoyulması haqqında qərar qəbul edilmişdir. |
| **1983-cü il 14 aprel** | İttifaqlar Evində görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazinin 70 illiyinə həsr olunmuş gecədə iştirak etmişdir. |
| **1983-cü il 9 may** | “Georgi Dimitrov” ordeni ilə təltif olunmuşdur. |
| **1983-cü il 10 may** | Kremldə Almaniya Demokratik Respublikasının SSRİ-də olan səfiri E. Vinkelmanı qəbul etmişdir. |
| **1983-cü il 16 iyun** | SSRİ Ali Sovetinin 10-cu çağırış 8-ci sessiyasında “Əmək kollektivləri və onların müəssisələrin, idarələrin, təşkilatların idarə edilməsində rolunun artırılması haqqında” qanun layihəsi barəsində məruzə ilə çıxış etmişdir. |
| **1983-cü il 17 iyun** | İkinci dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif edilmişdir. |
| **1983-cü il 1 iyul** | Voloqda şəhərinə Oktyabr inqilabı ordenini təqdim etmişdir. |
| **1983-cü il 18 iyul** | Kremldə Macarıstan Xalq Respublikasının Nazirlər Sovetinin sədri D. Lazarla danışıqlar aparmışdır. |
| **1983-cü il 2 avqust** | Kremldə Meksika Milli Konqresinin nümayəndə heyətini qəbul etmişdir. |
| **1983-cü il 6 avqust** | Kremldə Suriya Ərəb Respublikasının nümayəndə heyətinin rəhbəri, Xalq Şurasının sədri Mahmud Zuabini qəbul etmişdir. |
| **1983-cü il 12 avqust** | Kremldə Yəmən Ərəb Respublikasının səhiyyə naziri M. Kababanı qəbul etmişdir. |
| **1983-cü il 25 avqust** | Kremldə kənd təsərrüfatı naziri Ç. Blokun başçılığı ilə Amerika dövlət nümayəndə heyətini qəbul etmişdir. |
| **1983-cü il 5 sentyabr** | Bakıda Şərq xalçaları sənətinə dair beynəlxalq simpoziumun keçirilməsi ilə əlaqədar Azərbaycan Dövlət Rəsm Qalereyasında açılmış Azərbaycan xalçaları sərgisini ziyarət etmişdir. |
| **1983-cü il 24 sentyabr** | Bakıda böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin anadan olmasının 100 illiyinə həsr olunmuş “İblis” tamaşasında olmuşdur. |
| **1983-cü il 1 oktyabr** | M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Beynəlxalq musiqi dünyasına həsr |

| | |
|---|---|
| | olunmuş Üzeyir Hacıbəyov adına Dövlət Simfonik orkestrin konsertində olmuşdur. |
| **1983-cü il 15 oktyabr** | Kremlin Qurultaylar sarayının səhnəsində Fikrət Əmirovun 60 illiyinə həsr olunmuş bəstəkarın "Min bir gecə" tamaşasına baxmışdır. |
| **1983-cü il 27-28 oktyabr** | Vyetnama səfər edən SSRİ nümayəndə heyətinə başçılıq etmişdir. Hanoyda keçirilən təntənəli mitinqdə nitq söyləmişdir. |
| **1983-cü il 31 oktyabr** | Hanoyda SSRİ və Vyetnam Sosialist Respublikası arasında dostluq və əməkdaşlıq haqqında bağlanmış müqavilənin 5 illiyinə və Böyük Oktyabr Sosialist inqilabının 66 illiyinə həsr olunmuş təntənəli mitinqdə nitq söyləmişdir. |
| **1983-cü il 2 noyabr** | Vyetnamın Byenxoa sənaye zonasında olmuşdur. |
| **1983-cü il 19 noyabr** | Kremldə Yaponiyanın 4 siyasi partiyasının nümayəndə heyətini qəbul etmişdir. |
| **1984-cü il 17 yanvar** | SSRİ Yollar Nazirliyi, Dəmiryol Nəqliyyatı və Tikinti-Nəqliyyat Fəhlələri Həmkarlar İttifaqının Mərkəzi Komitəsinin Rəyasət Heyətinin geniş kollegiya iclasında iştirak etmişdir. |
| **1984-cü il 23 yanvar** | Nəqliyyat-Tikinti Nazirliyinin geniş kollegiyasında nitq söyləmişdir. |
| **1984-cü il 14 fevral** | Kremldə Çin Xalq Respublikası Dövlət Şurasının sədrinin müavini Van Lini qəbul etmişdir. |
| **1984-cü il 22 fevral** | Görkəmli bəstəkar Fikrət Əmirovla vida mərasimində iştirak etmişdir.<br><br>Bakı şəhəri Əzizbəyov rayonundakı 23 nömrəli birləşmiş xəstəxanada olmuşdur. |
| **1984-cü il 23 fevral** | Dərin Özüllər zavodunda olmuşdur. |
| **1984-cü il 11 mart** | Suriya Ərəb Respublikasına qısa müddətli işgüzar səfər etmişdir.<br><br>Suriya Ərəb Respublikasının Prezidenti Hafiz Əsədlə görüşmüşdür.<br><br>Suriya Ərəb Respublikasının xarici işlər naziri A. X. Xaddamla görüşmüşdür. |
| **1984-cü il 12 mart** | Suriya Ərəb Respublikasının baş naziri A. R. Kasma ilə görüşmüşdür.<br><br>Suriya Ərəb Respublikasının Prezidenti Hafiz Əsədlə danışıqları davam etmişdir. |
| **1984-cü il 13 mart** | Suriya Kommunist partiyasının Baş katibinin müavini Y. Feysəlin başçılıq etdiyi partiyanın rəhbər üzvləri ilə görüşmüşdür.<br><br>Moskvaya yola düşmüşdür. |
| **1984-cü il 30 mart** | Kremldə Sosialist Efiopiyanın Müvəqqəti Hərbi Şurasının sədri Mengistu Xayle Mariamı qəbul etmişdir. |
| **1984-cü il 11-12 aprel** | SSRİ Ali Sovetinin 11-ci çağırış 1-ci sessiyasında iştirak etmişdir. |
| **1984-cü il 11 aprel** | SSRİ Ali Sovetinin 11-ci çağırış 1-ci sessiyasında ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri mövzusunda məruzə etmişdir. |
| **1984-cü il 18 may** | Moskvada "Oktyabr" kinokonsert zalında kino işçilərinin Ümumittifaq yığıncağında sovet kinematoqrafçılarının mühüm vəzifələri mövzusunda çıxış etmişdir. |
| **1984-cü il 3-10 iyun** | Baykal-Amur magistralının tikintisinin gedişi ilə tanış olmaq üçün regiona səfər etmişdir. |

| | |
|---|---|
| **1984-cü il 8 iyun** | "Komsomolsk-Amurun 50 illiyi" yubiley nişanı ilə təltif olunmuşdur. |
| **1984-cü il 21 iyun** | Kremldə Fransanın nəqliyyat naziri Ş. Fittermanı qəbul etmişdir. |
| **1984-cü il 5 iyul** | Baykal-Amur magistralının tikintisinin gedişi ilə əlaqədar Sov. İKP MK Siyasi Bürosunda məlumatla çıxış etmişdir. |
| **1984-cü il 12 iyul** | Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı MK-nın "60 il V. Leninin adı ilə" fəxri nişanı ilə təltif olunmuşdur. |
| **1984-cü il 6-7 sentyabr** | Bakıda bir sıra orta və texniki peşə məktəbləri ilə tanış olmuşdur. |
| **1984-cü il oktyabr** | "Kommunist Azerbaydjana" jurnalının 10-cu nömrəsində məqaləsi dərc olunmuşdur. |
| **1984-cü il noyabr** | "Kommunist Azerbaydjana" jurnalının 11-ci nömrəsində məqaləsi dərc olunmuşdur. |
| **1984-cü il 27 noyabr** | Kremldə SSRİ Ali Sovetinin 11-ci çağırış 2-ci sessiyasında iştirak etmişdir.<br><br>İttifaq Sovetinin iclasında iştirak etmişdir. |
| **1984-cü il 28 noyabr** | Kremldə İttifaq Sovetin və Millətlər Sovetinin birgə iclasında iştirak etmişdir. |
| **1984-cü il 5-6 dekabr** | RSFSR Ali Sovetinin 10-cu çağırış 10-cu sessiyasında iştirak etmişdir. |
| **1984-cü il 14 dekabr** | İttifaqlar Evinin Sütunlu salonunda Tibb Elmləri Akademiyasına Lenin ordeninin təqdim olunması münasibətilə çıxış etmişdir. |
| **1985-ci il 19 yanvar** | Barnaul şəhərinin Mərkəzi seçki dairəsindən RSFSR Ali Sovetinə deputatlığa namizəd kimi qeydə alınmışdır. |
| **1985-ci il 24 yanvar** | "25 il. Patris Lumumba adına Xalqlar Dostluğu Universiteti" medalı ilə təltif olunmuşdur. |
| **1985-ci il 25 yanvar** | Nəqliyyat-Tikinti Nazirliyinin geniş kollegiya iclasını keçirmişdir. |
| **1985-ci il 30 yanvar** | SSRİ Yollar Nazirliyinin, Dəmiryol Nəqliyyatı və Tikinti-Nəqliyyat Fəhlələri Həmkarlar İttifaqının Mərkəzi Komitəsinin geniş iclasında çıxış etmişdir. |
| **1985-ci il 31 yanvar** | SSRİ-də Beynəlxalq gənclik gününün keçirilməsi üzrə komissiyanın iclasında məruzə ilə çıxış etmişdir. |
| **1985-ci il 13 fevral** | Barnaulda RSFSR Ali Sovetinə deputatlığa namizəd kimi seçicilərlə görüşmüşdür. |
| **1985-ci il 20 fevral** | Bakıya səfər etmişdir. |
| **1985-ci il 22 fevral** | SSRİ Ali Sovetinə deputatlığa namizəd kimi Bakıda bir sıra görüşlər keçirmişdir. |
| **1985-ci il 23 fevral** | SSRİ Ali Sovetinə deputatlığa namizəd kimi Bakıda Lenin adına sarayda seçicilərlə görüşmüşdür. |
| **1985-ci il 24 fevral** | Bakıdan Moskvaya yola düşmüşdür. |
| **1985-ci il 26 fevral** | Kremldə Polşa Xalq Respublikasının SSRİ-də olan fövqəladə və səlahiyyətli səfiri S. Koçolekanı Kremldə qəbul etmişdir. |
| **1985-ci 29 mart** | Kremldə İspaniyanın nəqliyyat, turizm və rabitə naziri E. Baronu qəbul etmişdir. |
| **1985-ci il** | Macarıstanın Moskvada keçirdiyi milli yubiley sərgisinin təntənəli açılış mərasimində çıxış |

| | |
|---|---|
| **1 aprel** | etmişdir. |
| **1985-ci il 12 aprel** | “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 40 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1985-ci il 15 aprel** | Həyat yoldaşı Zərifə Əziz qızı Əliyeva vəfat etmişdir. |
| **1985-ci il 19 aprel** | “I dərəcə Vətən müharibəsi” ordeni ilə təltif olunmuşdur. |
| **1985-ci il 22 aprel** | Moskvada V. İ. Leninin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş təntənəli iclasda məruzə etmişdir. |
| **1985-ci il 27 may** | Moskvada “Səhiyyə – 85” beynəlxalq sərgisinin açılışında çıxış etmişdir. |
| **1985-ci il 5 iyun** | Kremldə Macarıstan Xalq Respublikasının Nazirlər Soveti sədrinin müavini Y. Çexakı qəbul etmişdir. |
| **1985-ci il 25 iyun** | Kremldə Ümumdünya Səhiyyə təşkilatının Baş direktoru doktor X. Maleri qəbul etmişdir. |
| **1985-ci il 21-23 iyun** | Kazanda işgüzar səfərdə olmuşdur. |
| **1985-ci il 14 iyul** | “Moskovskiye novosti” qəzetinin 28-ci nömrəsində müsahibəsi dərc olunmuşdur. |
| **1985-ci il avqust** | “Kommunist Azerbaydjana” jurnalının 8-ci nömrəsində məqaləsi dərc olunmuşdur. |
| **1985-ci il 12 avqust** | Moskvadan Pxenyana Koreyanın azadlığının 40 illiyini qeyd etmək üçün yola düşən nümayəndə heyətinə başçılıq etmişdir. |
| **1985-ci il 20 avqust** | Kremldə Finlandiya Respublikasının hərbi naziri V. Pixlayamyakini qəbul etmişdir. |
| **1985-ci il 1 noyabr** | Kremldə Laosun hərbi naziri K. Sipxandonu qəbul etmişdir. |
| **1985-ci il 16 noyabr** | Kurqanda dəmiryolçu kommunistlərin hesabat-seçki konfransında çıxış etmişdir. |
| **1985-ci il 30 noyabr** | Moskvadan Anqolanın paytaxtı Luandaya yola düşən Sov. İKP-nin nümayəndə heyətinə başçılıq etmişdir. |
| **1985-ci il 3 dekabr** | Anqolada rəsmi səfərdə olmuş, Anqola Əmək partiyasının II qurultayında çıxış etmişdir. |
| **1986-cı il 28 yanvar** | Kremldə Yəmən Ərəb Respublikasının Baş nazirin müavini M. S. əl-Əttarı qəbul etmişdir. |
| **1986-cı il 25 fevral-6 mart** | Sov. İKP-nin XXVII qurultayının işində iştirak etmişdir. |
| **1986-cı il 7 mart** | Kremldə Suriyanın Dirçəlişi Ərəb Sosialist Partiyasının baş katibinin müavini Əl Əhmərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirtmişdir. |
| **1986-cı il 24 aprel** | Kremldə Vyetnam Sosialist Respublikasının Nazirlər Sovetinin sədr müavini Donq Şi Nquyenanı qəbul etmişdir. |
| **1986-cı il 8 iyun** | Çuvaşiyanın Çeboksarı şəhərində pambıq-parça kombinatında keçirilən təntənəli yığıncaqda çıxış etmişdir. |
| **1986-cı il 9 iyun** | Kremldə AFR-in görkəmli nümayəndəsi “Doyçe bank”ın idarə heyətin sədri F. V. Kristiansı qəbul etmişdir. |
| **1986-cı il 26-27 iyun** | Yuqoslaviyanın Kommunistlər İttifaqının XIII qurultayında iştirak etmək üçün Belqrada gedən nümayəndə heyətinə başçılıq etmişdir. |

| | |
|---|---|
| **1986-cı il 31 iyul** | İki dəfə sosialist əməyi qəhrəmanı olduğu üçün Naxçıvanda onun büstünün təntənəli açılış mərasimi keçirilmişdir. |
| **1986-cı il 3 sentyabr** | Novorossiyskdə "Admiral Naximov" gəmisinin batması nəticələrinin aradan qaldırılması üçün yaranmış Dövlət Komissiyasına sədr təyin olunmuşdur. |
| **1986-cı il 18 sentyabr** | Kremldə Yəmən Xalq Demokratik Respublikasının daxili işlər naziri S. Mas-Seyili qəbul etmişdir. |
| **1986-cı il 26 sentyabr** | Kremldə Kuba Respublikasının Nazirlər Soveti sədrinin müavini D. Toralbası və Kuba Respublikasının SSRİ-də olan səfiri X. Kamaçonu qəbul etmişdir. |
| **1986-cı il 16 oktyabr** | SSRİ Nazirlər Sovetinin Sosial İnkişaf Bürosunun sədri təyin olunmuşdur. |
| **1986-cı il 25 oktyabr** | Mozambik Xalq Respublikasının prezidenti marşal Samora Moyzes Maşelin dəfn mərasimində iştirak etmək üçün Moskvadan Maputaya yola düşən sovet nümayəndə heyətinə başçılıq etmişdir. |
| **1986-cı il 4 noyabr** | Hindistan Respublikasının müdafiə naziri A. Sinqxanı qəbul etmişdir. |
| **1986-cı il 11-16 noyabr** | Laosa səfər edən Sov. İKP MK-nın nümayəndə heyətinə başçılıq etmişdir. |
| **1986-cı il 18 noyabr** | Moskvada Səməd Vurğunun 80 illik yubileyi mərasimində iştirak etmişdir. |
| **1986-cı il 1 dekabr** | Azərbaycan Dövlət akademik Teatrında Q. M. Ərəblinskinin anadan olmasının 100 illiyinə həsr olmuş təntənəli gecədə iştirak etmişdir. |
| **1987-ci 8 yanvar** | Kremldə Polşa Xalq Respublikasının daxili ticarət və xidmət naziri E. Yuzvakı qəbul etmişdir. |
| **1987-ci 7 mart** | Sosialist Efiopiyasının milli müdafiə naziri general-leytenant Tesfaye Gebre-Kidanı qəbul etmişdir. |
| **1987-ci 15-18 mart** | Volqoqrad vilayətində səfərdə olmuşdur. |
| **1987-ci 15 aprel** | Xorvatiya Sosialist Respublikası Saborunun İcraiyyə Veçesinin sədri A. Miloviçi qəbul etmişdir. |
| **1987-ci il 14 oktyabr** | Kremldə Küveytin neft naziri Əli əl-Xəlifi qəbul etmişdir. |
| **1987-ci il 17 oktyabr** | Yuqoslaviya SFR İttifaq İcraiyyə veçesinin sədr müavini Y. Zemlariçi qəbul etmişdir. |
| **1987-ci il 21 oktyabr** | Sov. İKP MK-nın plenumu səhhəti ilə əlaqədar Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən azad etmişdir.<br><br>SSRİ Nazirlər Sovetinin nəzdində dövlət müşaviri təyin edilmişdir. |
| **1987-ci il 24 oktyabr** | SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilmişdir. |
| **1988-ci il 28 yanvar** | "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. |
| **1988-ci il 21 sentyabr** | "Literaturnaya qazeta"da Heydər Əliyevin əleyhinə təşkil edilmiş "Sürəkli alqışlar" adlı məqalə dərc edilmişdir. |
| **1988-ci il 21 sentyabr** | "Sosialistiçeskaya industriya" qəzetində Heydər Əliyev əleyhinə "Tayfabazlığın mənqənəsində" adlı sifarişli məqalə dərc edilmişdir. |
| **1988-ci il noyabr** | Öz xahişi ilə SSRİ Nazirlər Sovetinin nəzdində dövlət müşaviri vəzifəsindən azad olunmuşdur. |

| | |
|---|---|
| **1989-cu il 24 aprel** | Təqaüd yaşının çatması səbəbilə Sov. İKP MK üzvlüyündən azad edilmişdir. |
| **1989-cu il 29 noyabr** | "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibə vermişdir. |
| **1990-cı il 20 yanvar** | Azərbaycanın Moskvadakı daimi nümayəndəsi S. İbrahimov "Barvixa" sanatoriyasında müalicə olunan Heydər Əliyevə zəng edərək Yanvar faciəsi barədə məlumat vermişdir. |
| **1990-cı il 21 yanvar** | Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qırğınlar ilə əlaqədar bəyanat vermişdir. |
| **1990-cı il 4 fevral** | "Pravda" qəzetində "Əliyevçilik, yaxud xoş əyyamların xiffəti" məqaləsi dərc olunmuş, ona qarşı siyasi təqib başlanmışdır. |
| **1990-cı il 9 fevral** | Rusiya televiziyasının aparıcısı Andrey Karaulova və "Vaşinqton post" qəzetinin Moskva müxbiri Devid Remnikə müsahibə vermişdir. |
| **1990-cı il iyun** | "Ulduz" jurnalının 6-cı nömrəsində jurnalist Elmira Əhmədovaya Moskvada verdiyi müsahibəsi dərc olunmuşdur. |
| **1990-cı il 20 iyul** | Moskvadan Bakıya qayıtmışdır. |